# İqtisadi islahatların ilk dalğası

## Prezident İlham Əliyevin imzaladığı son fərman və sərəncamlar idarəetmənin optimallaşdırılması, yeni iş yerlərinin açılması, qeyri-neft sektorunun inkişafı üçün yeni imkanlar açır

**Dünyada baş verən iqtisadi böhran, neftin qiymətinin kəskin ucuzlaşması Cənubi Qafqazın lider dövləti olan Azərbaycana da təsirsiz ötüşməyib. Çünki Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır və neft ixrac edən ölkədir. Belə olan halda təbii ki, baş verən hadisələr Azərbaycanın da gəlirlərini azaldıb, milli valyutamız iki dəfə devalvasiyaya uğrayıb, ölkəmiz iqtisadi çətinliklərlə üzləşib. Lakin Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan dünya iqtisadi böhranından ən az itki ilə çıxan ölkələrdən biri olub.**



Belə ki, iqtisadi islahatların daha sürətlə aparılması üçün dövlət başçısı tərəfindən bir çox sərəncamlar, qanunlar imzalanıb. Biznes mühitinin yaxşılaşdırılması, ölkənin ixrac potensialının artırılması, xarici sərmayənin Azərbaycana cəlb edilməsi, yerli istehsalın artırılması üçün çox ciddi qərarlar qəbul edilib. Azərbaycan iqtidarının cari ilin ilk rübündə atdığı operativ addımlar, aparılan iqtisadi islahatlar və düşünülmüş xarici siyasət nəticəsində bütün risklər minimum səviyyəyə endirilib. Məhz bunun nəticəsidir ki, ilin birinci rübündə Azərbaycanda qeyri-neft sənayesində 5 faizdən çox artım müşahidə olunub. Qeyd edilən müddətdə Azərbaycanda maaşlar və pensiyalar 10 faiz artırılıb. Bundan başqa, Azərbaycanda ötən birinci rübdə 31 mini daimi olmaqla ümumilikdə 37 min yeni iş yerinin yaradılması da ölkə iqtisadiyyatındakı inkişafın göstəricisi kimi qiymətləndirilə bilər. Bu göstəricilərin özü, eyni zamanda dövlət səviyyəsində həyata keçiriləcək bir sıra tədbirlər onu deməyə əsas verir ki, Azərbaycanda iqtisadiyyatın əsasını təşkil edən qeyri-neft sektoru daha da sürətlə inkişaf edəcək. Bundan irəli gələrək, gələcəkdə qeyri-neft sektorunun ixrac strukturunda da böyük çəkiyə malik olması üçün tədbirlərin görülməsi planlaşdırılıb.

Qeyri-neft sektorunda həyata keçirilən qabaqlayıcı tədbirlərlə bərabər, bir sıra dövlət strukturlarında da islahatlar baş verib. Sosial müdafiə sahəsində vahid dövlət siyasətinin və səmərəli idarəetmənin həyata keçirilməsi, əhalinin sosial tələbatlarının ödənilməsində müasir informasiya texnologiyalarının tətbiqi ilə kompleks yanaşmanın gerçəkləşdirilməsi, o cümlədən əmək pensiyaları və digər sosial ödənişlərin təyinatının "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi məqsədi ilə Prezident İlham Əliyev martın 18-də fərman imzalayıb. Həmin fərmanla Dövlət Sosial Mü- [illegible] sial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) strukturuna daxil edilib və ƏƏSMN yanında DSMF adlandırılıb. Dövlət başçısı bu addımları ilə həm də Azərbaycanda sosial siyasətin hər zaman prioritet təşkil etdiyini, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını bir daha nümayiş etdirib. Prezident İlham Əliyevin aprelin 11-də imzaladığı digər bir fərman Dövlət İmtahan Mərkəzi (DİM) publik hüquqi şəxsin yaradılması haqqındadır. Fərmana görə, DİM dövlət qeydiyyatına alındığı andan Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ləğv edilir, onların istifadəsində olan dövlət əmlakı yeni Mərkəzin balansına verilir. Ölkə başçısının bu qərarı da idarəetmənin daha da optimallaşdırılması üçündür.

Onu da əlavə edək ki, struktur islahatlarla yanaşı, qeyri-neft sektorunun gəlirliliyinin artırılması da ölkədə daim diqqət mərkəzində saxlanılır. Misal üçün srağagün dövlət başçısı "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yaradılması haqqında" sərəncam imzalayıb. Bu qərarın qəbul edilməsində məqsəd kənd təsərrüfatı məhsullarının istehsalını və emalını stimullaşdırmaq, kənd təsərrüfatı məhsulları istehsalçılarının inkişafını təmin etmək, ərzaq məhsullarının keyfiyyətini daha da artırmaq, dövlət vəsaitlərindən səmərəli istifadəni təmin etmək, regionlarda kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaqdır. Yəni, rayon- [illegible] etdiyi məhsul bundan sonra dövlət sifarişi ilə satın alınacaq. Bununla da kəndli öz məhsulunu satmaq üçün bazar tapmaq kimi qayğıdan azad olunacaq, gəlir əldə etdiyini görüb daha çox məhsul istehsal etməkdə maraqlı olacaq. Son nəticədə isə bu, qeyri-neft sektorunun daha da inkişaf etməsinə təkan verəcəkdir. Onu da qeyd edək ki, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınması mərkəzləşdirilmiş qaydada məhz "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC tərəfindən həyata keçiriləcək. Məhz bu ASC ərzaq məhsullarını istehsalçılardan və satıcılardan alacaq və tədarük edərək satınalan təşkilatlara təqdim edəcəkdir.

Dövlət başçısı İlham Əliyev aprelin 11-də "Azərbaycan Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) yaradılması və fəaliyyətinin təşkili haqqında" da fərman imzalayıb. Bu agentlik vətəndaşlarının yaşayış sahələrinə olan ehtiyacını ödəmək, onların mənzil-məişət şəraitini yaxşılaşdırmaq, müasir memarlıq üslubunda ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən çoxmənzilli binaların tikilməsini təmin etmək, habelə bununla bağlı şəhərsalma və tikinti sahələrində dövlət idarəetməsini təkmilləşdirmək məqsədi ilə yaradılıb. Bu yerdə xatırladaq ki, iqtisadi böhrandan sonra neftin qiymətinin kəskin ucuzlaşması, manatın devalvasiyası, bank sahəsində yaranan problemlər tikinti sektorunda da böhran yaratmışdı. Məhz bu böhranın aradan qaldırılması, aztəminatlı ailələrin mənzil probleminin həll olunması, eyni za- [illegible] açılması üçün MİDA-nın yaradılması mühüm addımdır.

Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev bu məsələ üzərində xüsusi dayanaraq qeyd etmişdi ki, yaxın zamanlarda sosial mənzillərin tikintisi proqramı ictimaiyyətə təqdim ediləcəkdir. O, bunun yeni bir təşəbbüs olduğunu, bəzi ölkələrdə bu praktikanın mövcudluğunu da vurğulamışdı. Bildirmişdi ki, bu sahədə müsbət praktika öyrənilib və sosial mənzillərin tikintisi prosesi yaxın zamanlarda başlanacaqdır: "Regionlarda işsizliyin azaldılması və maddi imkanları aşağı olan aztəminatlı əhalinin mənzil probleminin həlli üçün bütün şəhərlərdə, rayon mərkəzlərində sosial mənzillərin tikintisinə başlanacaqdır. Xüsusilə qeyd etmək istəyirəm ki, nəinki Bakıda və böyük şəhərlərdə, bütün şəhərlərdə, bütün rayon mərkəzlərində. Dünya təcrübəsindən istifadə etməklə, vətəndaşların belə evlərə sahib olma qaydaları və həmin mənzillərdə yerləşdirilən insanlara mülkiyyət hüququnun verilmə prosedurları müəyyən ediləcəkdir. Sosial Mənzil Fondunun yaradılmasında əsas məqsəd belə mənzilləri aztəminatlı əhaliyə aşağı qiymətlərlə və uzun müddətə kreditlə təqdim etməklə onların mənzil problemlərinin həllindən və sosial rifah hallarının yaxşılaşdırılmasından ibarətdir. Bu tipli mənzillərin tikintisi həm Bakı şəhərində, həm də bütün digər rayon və şəhərlərdə geniş şəkildə aparılacaqdır".

Dövlət başçısı onu da diqqətə çatdırıb ki, sosial mənzillərin tikintisi əlavə iş yerlərinin yaradılmasına, mənzilə ehtiyacı olan əhali qrupunun belə ehtiyaclarının ödənilməsinə səbəb olacaqdır. Eyni zamanda bu mənzillərin əhaliyə təqdim edilməsi nəticəsində yeni zəruri istehlak ehtiyaclarının yaranacağı nəzərə alınmaqla, paralel şəkildə iqtisadiyyatın 20-dək digər sahələrinin də inkişafına təkan olacaqdır. Prezidentin sözlərinə görə, bu, inşaat sektoruna çox böyük təkan verəcək, bu sektorda vaxtilə işləmiş, ancaq indi işlərini itirmiş insanlar yenə də işlə təmin ediləcək və ümumilikdə bunun çox geniş multiplikativ səmərəsi olacaqdır.

Sadalanan faktlardan da göründüyü kimi, son vaxtlar imzalanan fərman və sərəncamlar, həyata keçirilən tədbirlər Azərbaycan prezidentinin 2016-cı ilin islahatlar ili olacağı, qeyri-neft sektorunun bir qədər də inkişaf edəcəyi, əhalinin sosial vəziyyətinin yaxşılaşacağı barədə verdiyi bəyanatlarını əyani şəkildə təsdiqidir.

**Rufik İSMAYILOV**

# Yollarda təhlükəsizliklə bağlı müsabiqənin qalibləri mükafatlandırıldı

**Paytaxt yollarında yol hərəkəti qaydalarının pozulması ilə bağlı ən yaxşı foto və video-süjet müsabiqəsinə yekun vuruldu. Aprelin 12-də Beynəlxalq Mətbuat Mərkəzində "Qanunsuz parklamalara qarşı mübarizə" İctimai Birliyi və "Azadinform" İnformasiya Agentliyinin martın 3-də elan etdiyi paytaxt yollarında yol hərəkəti qaydalarının pozulması ilə bağlı "Ən yaxşı foto və video-süjet müsabiqəsi"nin qalibləri mükafatlandırıldı.**

Tədbiri giriş sözləri ilə **açan "Azadinform" İnformasiya Agentliyinin baş redaktoru Niyaz Niftiyev** müsabiqədə iştirak edənlərə öz minnətdarlığını bildirdi. O qeyd etdi ki, müsabiqəyə göndərilən foto və videoların sayına heç bir məhdudiyyət qoyulmayıb. Çəkilən foto və video-süjetlərin əsas mövzusu sürət həddinin aşılması, avtomobillərin bir-biri ilə yarışa çıxması, qanunsuz parklamalar, sürücülərin tullantıları yolun ortasına atması və s. olub: "Bu, bizim yollarda təhlükəsizliklə bağlı təşkil olunan ikinci tədbirimizdir. İlk tədbirimiz daha böyük, iştirakçılarımızın sayı daha çox idi. Bu dəfə isə cəbhə bölgəsində baş vermiş son hadisələrlə bağlı belə qərara gəldik ki, tədbiri daha çərçivəli keçirək".



Baş redaktor bildirdi ki, bu cür yarışmaların keçirilməsində əsas məqsəd sürücülük mədəniyyətinin yüksəldilməsidir: "Bizim məqsədimiz yollarda təhlükəsizlik, parklanma qaydaları və digər yol-nəqliyyat hadisələrinə aid olan problemləri ictimailəşdirməkdir. Müsabiqədə 13 foto və 5 videonun təqdim edilməsi də sübut edir ki, problem aktuallığını qoruyub saxlayır. Müsabiqəyə təqdim olunan foto və video-süjetlərdə qayda pozan sürücülər özlərinə kənardan baxmaq imkanı əldə edirlər. Ümid edirik ki, bundan sonra həmin sürücülər sükan arxasında daha diqqətli və mədəni olmağa çalışacaqlar. Müsabiqəyə daxil olan foto və videolar tərəfdaş təşkilatımız olan "Qanunsuz Parklamalara Qarşı Mübarizə" İctimai Hərəkatı "noparkinq.az" saytında yerləşdirilib".

N.Niftiyev dedi ki, tərəfdaşları olan "Veysəloğlu" Şirkətlər Qrupu belə korporativ-sosial layihələrdə hər zaman jurnalistlərə dəstək olur: "Onlar bizim qaliblərimizi də mükafatlandırmaq qərarına gəldilər. Ona görə şirkətin rəhbərliyinə və xüsusilə ictimaiyyətlə əlaqələr şöbəsinə minnətdarlığımı bildirmək istəyirəm".

Daha sonra tədbirdə çıxış edən **"Qanunsuz parklamalara qarşı mübarizə" İctimai Birliyi"nin rəhbəri İsgəndər Quliyev** bildirdi ki, həyatımız üçün təhlükə yaradan intizamsız sürücülərə qarşı davamlı mübarizə aparmaq lazımdır: "Son zamanlar parklama ilə bağlı bir çox problemlər yaşanır. Artıq hər kəs dərk edib ki, yol hərəkəti qaydalarının pozulması hallarının qarşısını yalnız cərimə və sərt cəzalarla almaq mümkün deyil. Bu işdə təbliğat və maarifləndirmə ən güclü vasitədir. Bununla bağlı Dövlət Yol Polisi İdarəsi bir çox tədbirlər keçirir və reydlər təşkil edir. Biz də öz növbəmizdə maarifləndirmə işlərinə böyük əhəmiyyət veririk. Bu müsabiqə də maariflənmədə böyük rol oynayır. Ümid edirik ki, müsabiqədən sonra yol hərəkəti iştirakçıları daha diqqətli olacaqlar".

Qeyd edək ki, tədbirin sonunda müsabiqə iştirakçılarından 4 qalibə (Yeganə Süleymanova - qhtxeber.az, Ruslan Xəlilov - "Gündəlik teleqraf", Elşən Şirbağırov - İTV "Carçıfilm"də rejissor assisenti, Mithəd Abdullayev - müstəqil jurnalist) təşkilatçılar tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırıldılar.

**Şəbnəm Mehdizadə**